“Yapı Kredi Bank Azərbaycan” QSC-nin Müşahidə Şurasının 3 May 2023-cü il tarixli 01/2023 sayli protokol qərarı ilə təsdiq edilmişdir.

Müşahidə Şurasının Sədri

______________________ Gökhan Erün

# “Yapı Kredi Bank Azərbaycan” QSC

## *Risklərin İdarəedilməsi Siyasəti*

Bakı – 2023

**MÜNDƏRİCAT**


QISALTMALAR .......... 3
1. ÜMUMİ MÜDDƏALAR .......... 3
2. RİSKLƏRİN TƏSNİFATI .......... 3
3. RİSKLƏRİN İDARƏEDİLMƏSI PROSESİ .......... 4
3.1. Müdafiə xəttləri .......... 4
3.2. Risk Xəritəsi .......... 4
3.3. Kredit Riskinin İdarəedilməsi .......... 4
3.4. Bazar Riskinin İdarəedilməsi .......... 5
3.5. Likvidlik Riskinin İdarəedilməsi .......... 5
3.6. Əməliyyat Riskinin İdarəedilməsi .......... 6
3.7. Strateji Riskin İdarəedilməsi .......... 6
3.8. Nüfuz Riskinin İdarəedilməsi .......... 6
4. RİSKLƏRİN İDARƏEDİLMƏSİNİN TƏŞKİLATİ STRUKTURU .......... 6
5. HESABATLIQ .......... 10
6. YEKUN MÜDDƏALAR .......... 10

**QISALTMALAR**

| | |
|---|---|
| BMHS | Beynəlxalq Mühasibat Uçotu Hesabatları Standartı |
| BPV | baza xal dəyəri |
| EAD | defoltda məruz qalma |
| LGD | defolt halında itki |
| MŞ | Müşahidə Şurası |
| PD | defolt ehtimalı |
| RmD | riskə məruz dəyər |

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. YapıKrediBank Azərbaycan QSC-nin Risklərin İdarəedilməsi Siyasəti bankda risklərin müəyyənləşdirilməsi, qiymətləndirilməsi, idarəedilməsi, monitorinqi və onlar üzrə hesabatlığı müəyyən edir.

1.2. Bu Siyasət Azərbaycan Respublikasının qanunvericiliyi, Azərbaycan Respublikasının Mərkəzi Bankının normativ hüquqi aktları, Banklar haqqında Azərbaycan Respublikasının qanunu və Bazel Komitəsinin tövsiyyələri üzrə hazırlanmışdır.

1.3. Bu Siyasət risklərin idarəedilməsi işinin təşkili, səlahiyyətlər bölgüsü və risklərin fəaliyyət növləri üzrə idarəedilməsini müəyyən edir.

1.4. Risklərin İdarəedilməsi Siyasəti ən azı ildə bir dəfə yenilənir, MŞ tərəfindən təsdiqlənir, bank daxilində elan edilir və müvafiq prosedurlara uyğun olaraq icra edilir.

## 2. RİSKLƏRİN TƏSNİFATI

**Kredit riski** – borcalanın bank qarşısında öhdəliyinin vaxtında və ya tam icra olunmaması nəticəsində yaranır.

**Bazar riski** – faiz dərəcələrinin, valyuta məzənnələrinin, qiymətli kağızların və əmtəələrin dəyərində baş verən dəyişikliklərlə əlaqədar yaranan risklər. Bankda bazar riskinin aşağıdakı alt kateqoriyaları mövcuddur:

- faiz dərəcəsi riski – faiz dərəcələrinin əlverişsiz dəyişməsi ilə əlaqədar yaranan risk
- valyuta riski – xarici valyuta məzənnələrinin əlverişsiz dəyişməsi ilə əlaqədar yaranan risk
- kapital riski – bankın aldığı qiymətli kağızların dəyərinin əlverişsiz dəyişməsi ilə əlaqədar yaranan risk

**Likvidlik riski** – bu risk planlaşdırılmış və gözlənilməyən öhdəliklərin vaxtında və effektiv yerinə yetirilə bilməməsi nəticəsində yaranır.

**Əməliyyat riski** – bank əməkdaşları tərəfindən yol verilmiş nöqsan və səhvlər, informasiya sistemi və texnologiyalarda baş vermiş problem və çatışmazlıqlar, kredit və qeyri-kredit məhsul və proseslər ilə bağlı əməliyyat riskləri və problemləri, habelə bankdankənar hadisələrlə əlaqədar yaranan risklərdir. Əməliyyat riskinin aşağıdakı alt kateqoriyaları mövcuddur:

- İnsan resursu riski – bankın əməkdaşları tərəfindən bilərəkdən və ya bilmədən bank əməliyyatlarının həyata keçirilməsi zamanı mövcud hüquqi aktların pozulması, səhv və nöqsanlara yol verilməsi nəticəsində yaranan risk
- İT riski – bankın informasiya sistemi və ya texnologiyalarında baş verən problemlərlə əlaqədar yaranan risk
- Hüquqi risk – hüquqi aktların, o cümlədən nəzarət orqanının və vergi orqanlarının hüquqi aktlarının tələblərinin pozulması, tam, vaxtında və ya düzgün tətbiq edilməməsi, bankın daxili qaydalarının qəbul edilməməsi, habelə daxili qaydalarda ziddiyyət və boşluqlar nəticəsində yaranan risk
- Komplayens riski – cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsi sahəsində olan hüquqi aktlara, o cümlədən nəzarət orqanının və maliyyə monitorinqi orqanının tələblərinə riayət edilməməsi nəticəsində yaranan hüquqi risk
- Kənar risk – üçüncü tərəf və ya təbiətin vurduğu ziyan nəticəsində yaranan risk

**Strateji risk** – bu risk strateji hədəflərin düzgün seçilməməsi nəticəsində yaranır

**Nüfuz riski** – bu risk banka qarşı etimadın azalması və mənfi ictimai rəy nəticəsində yaranır

## 3. RİSKLƏRİN İDARƏEDİLMƏSİ PROSESİ

Bankın bütün əməkdaşları risklərin idarəedilməsi prosesində iştirak edir və öz fəaliyyətlərini müvafiq risklərin hərtərəfli təhlili əsasında və aidiyyatı üzrə bankdaxili və normativ hüquqi sənədlərə əsaslanmaqla həyata keçirir.

### 3.1. *Müdafiə xəttləri*

Bankın fəaliyyət növləri, biznes prosesləri və informasiya sistemləri üzrə risklərin idarəedilməsi prosesində aşağıdakı müdafiə xətləri nəzərə alınır.

- Birinci müdafiə xətti : bankın müştərilərinə xidmət göstərən, məhsul və xidmətlərin inkişafını həyata keçirən struktur bölmələr, habelə bankın filial və şöbələri daxildir
- İkinci müdafiə xətti: bankda risklərin idarəedilməsi funksiyasını həyata keçirən struktur bölmələr daxildir
- Üçüncü müdafiə xətti: birinci və ikinci müdafiə xəttlərini qiymətləndirmək səlahiyyəti olan Daxili Audit Departamenti və kənar auditorlar daxildir.

### 3.2. *Risk Xəritəsi*

Bankın məruz qala biləcəyi risklər, riski yaradan daxili və kənar amillər, riskin yarada biləcəyi digər risklər və mümkün zərərlər, habelə riskin başvermə tezliyi, idarəedilməsi və qiymətləndirmə alətləri, riskin idarəedilməsi üzrə məsul şəxs və ya struktur bölmənin müəyyən edilməsi üçün risk xəritəsi hazırlanır. Risk xəritəsinə ən azı ildə iki dəfə yenidən baxılır və lazım gəldikdə dəyişikliklər edilir.

### 3.3. *Kredit Riskinin İdarəedilməsi*

Riskin idarəedilməsi üçün istifadə olunan nəzarət tədbirləri:

- kredit portfelinin kəmiyyət və keyfiyyət göstəriciləri üzrə qiymətləndirilməsi

- kredit portfelinin effektiv idarəedilməsi məqsədilə limitlərin təyin olunması və bankın risk iştahasına daxil edilməsi
- verilmiş kreditlərin mütəmadi olaraq monitorinqinin aparılması

Risklərin müəyyənləşdirilməsi üçün istifadə edilən metodlar:

- PD və LGD (BMHS əsasında)
- riskə məruz portfel
- vintaj təhlili
- miqrasiya matrisləri
- stress-test modelləri
- portfel konsentrasiyaları
- erkən xəbərdarlıq siqnalları

*3.4. Bazar Riskinin İdarəedilməsi*

Faiz dərəcəsi riski

Riskin idarəedilməsi üçün istifadə olunan nəzarət tədbirləri:

- riskin qiymətləndirilməsi, monitorinqi, nəzarət üsulları və hesabatlılıq
- limitlərin təyin olunması və bankın risk iştahasına daxil edilməsi

Risklərin müəyyənləşdirilməsi üçün istifadə edilən metodlar:

- BPV
- gap və faiz şoklu gap
- stress test modelləri

Valyuta riski

Riskin idarəedilməsi üçün istifadə olunan nəzarət tədbirləri:

- riskin qiymətləndirilməsi, monitorinqi, nəzarət üsulları və hesabatlılıq
- limitlərin təyin olunması və bankın risk iştahasına daxil edilməsi

Risklərin müəyyənləşdirilməsi üçün istifadə edilən metodlar:

- RmD (FX VaR)
- gap təhlili
- stress test modelləri

Kapital riski

Riskin idarəedilməsi üçün istifadə olunan nəzarət tədbirləri:

- riskin qiymətləndirilməsi, monitorinqi, nəzarət üsulları və hesabatlılıq
- limitlərin təyin olunması və bankın risk iştahasına daxil edilməsi

Risklərin müəyyənləşdirilməsi üçün istifadə edilən metodlar:

- RmD (VaR)
- həssaslıq testləri

*3.5. Likvidlik Riskinin İdarəedilməsi*

Riskin idarəedilməsi üçün istifadə olunan nəzarət tədbirləri:

- riskin qiymətləndirilməsi, monitorinqi, nəzarət üsulları və hesabatlılıq
- limitlərin təyin olunması və bankın risk iştahasına daxil edilməsi

Risklərin müəyyənləşdirilməsi üçün istifadə edilən metodlar:

- likvidlik əmsalları

- qısa müddətli və strukturlaşdırılmış likvidlik
- liqvidlik gap-i
- maliyyələşdirmə konsentrasiyası
- stress test modelləri və ssenari təhlilləri
- erkən xəbərdarlıq siqnalları

*3.6. Əməliyyat Riskinin İdarəedilməsi*

Riskin idarəedilməsi üçün istifadə olunan nəzarət tədbirləri:

- riskin qiymətləndirilməsi, monitorinqi, nəzarət üsulları və hesabatlılıq
- limitlərin təyin olunması və bankın risk iştahasına daxil edilməsi

Risklərin müəyyənləşdirilməsi üçün istifadə edilən vasitələr:

- audit tapıntıları
- əməliyyat risk hadisələri və zərərlər barədə məlumatların toplanması və təhlili
- özünü qiymətləndirmə

*3.7. Strateji Riskin İdarəedilməsi*

Riskin idarəedilməsi üçün istifadə olunan nəzarət tədbirləri:

- Bankın strateji planı üzrə hədəflərin reallaşdırılmasına nəzarət, monitorinq və hesabatlıq

Riskin idarəedilməsində istifadə olunan vasitələr:

- Müqayisəli təhlil

*3.8. Nüfuz Riskinin İdarəedilməsi*

Riskin idarəedilməsi üçün istifadə olunan nəzarət tədbirləri:

- riskin qiymətləndirilməsi, monitorinqi, nəzarət üsulları və hesabatlılıq

Riskin idarəedilməsində istifadə olunan alətlər:

- muştəri şikayətləri monitorinqi
- kütləvi informasiya vasitələrində yayılan xəbərlərin izlənilməsi
- müştərilər arasında sorğu
- işçilər arasında anonim sorğular
- empirik təhlil

## 4. RİSKLƏRİN İDARƏEDİLMƏSİNİN TƏŞKİLATİ STRUKTURU

4.1. Risklərin idarəedilməsi prosesində bankın Müşahidə Şurası, Risklərin İdarəedilməsi Komitəsi (bundan sonra - RİK), İdarə Heyəti, Risklərin İdarəedilməsi Departamenti, bankın biznes bölmələri, Daxili Nəzarət və Komplayens Departamenti və Daxil Audit Departamenti iştirak edirlər.

4.2. Bu prosesdə iştirak edən bölmələrin səlahiyyətləri aşağıdakı kimidir:

Müşahidə Şurası (MŞ):

- bankın risk profilinə adekvat səmərəli risklərin idarəedilməsi sisteminin yaradılmasını təmin edir
- risklərin idarəedilməsi üzrə strategiyanı, siyasəti, daxili qaydaları və təşkilati strukturu təsdiq edir

- risklərin idarəedilməsi ilə bağlı İdarə Heyətinin işinə nəzarət edir və Risklərin İdarəedilməsi Departamentindən birbaşa hesabatlar alır
- İdarə Heyəti və RİK-in bankda risklərin idarəedilməsi ilə bağlı təqdim etdiyi məsələlərə dair qərarlar qəbul edir
- risk iştahası bəyannaməsi və risk limitlərini təsdiq edir
- fövqəladə hallar planını təsdiq edir

Risklərin İdarəedilməsi Komitəsi:

- risklərin idarəedilməsi, siyasətinə və qaydalarına, habelə onlara dəyişikliklərə baxır və təsdiq olunması üçün Müşahidə Şurasına təqdim edir
- risk iştahası bəyannaməsi, habelə risk limitlərinə baxır və təsdiq olunması üçün Müşahidə Şurasına təqdim edir
- risklərin müəyyənləşdirilməsi və qiymətləndirilməsi üzrə müvafiq metod və alətlərin seçilməsi və onların həyata keçirilməsi tezliyini müəyyən edir
- bankın məruz qaldığı risklərin vəziyyəti və risklərin idarəedilməsi sisteminin effektivliyi barədə hesabat hazırlayır və Müşahidə Şurasına təqdim edir
- risklərin idarəedilməsi sisteminin təkmilləşdirilməsi ilə bağlı Müşahidə Şurasına təkliflər hazırlayır
- Risklərin İdarəedilməsi Departamentinin işini qiymətləndirir və qiymətləndirmənin nəticələri barədə Müşahidə Şurası və İdarə Heyətini məlumatlandırır
- müştərilərə təklif olunan bütün maliyyə xidmətləri və məhsullar ilə bankın biznes modeli və risk strategiyası arasındakı uyğunluğa nəzarət edir, təklif olunan məhsul və xidmətlərin qiymətləri və gəlirliyini nəzərə almaqla, onlarla əlaqədar riskləri qiymətləndirir
- risklərin idarəedilməsi funksiyasını həyata keçirən struktur bölmələrin və bankdaxili digər komitələrin səlahiyyətləri ilə bağlı Müşahidə Şurasına təkliflər verir
- risk iştahası bəyannaməsi üzrə hesabatları nəzərdən keçirir, Müşahidə Şurasına risk göstəriciləri üzrə müəyyən edilmiş limitlərin pozulması halında riskin azaldılması və ya risk limitlərinin bazar şəraitinə uyğunlaşdırılması barədə təkliflər verir
- İdarə Heyəti ilə birgə fövqəladə hallar planını nəzərdən keçirir və Müşahidə Şurasına təqdim edir
- risk mədəniyyətinin cari vəziyyətini qiymətləndirir və onun gücləndirilməsi üzrə tədbirlər görür
- iclaslarını ən azı iki ayda bir dəfə keçirir və onların nəticələri barədə bankın Müşahidə Şurasına hesabat verir
- Baş Risk İnzibatçısı tərəfindən aylıq əsasda təqdim olunan hesabatları nəzərdən keçirir

İdarə Heyəti:

- risklərin idarəedilməsi siyasətinin icrasını təmin edir
- bankda risklərin idarəedilməsi prosesini təşkil edir
- məruz qalınmış riskləri təhlil edir və aşkar edilmiş çatışmazlıqların aradan qaldırılması üçün tədbirlər görür
- bankın yeni məhsullarının tətbiqinə dair qərar verir

- Müşahidə Şurasına və Risklərin İdarəedilməsi Komitəsinə risklər və onların idarəedilməsi barədə hesabatlar təqdim edir
- bankın risklərini adekvat idarə etmək məqsədilə Risklərin İdarəedilməsi Departamenti üçün uyğun mühit yaradır
- Risklərin İdarəedilməsi Komitəsi ilə birlikdə fövqəladə hallar planını nəzərdən keçirir və Müşahidə Şurasına təqdim edir
- bankın digər struktur bölmələrinin Risklərin İdarəedilməsi Departamenti ilə əməkdaşlığını təmin edir, habelə fəaliyyətinə müdaxilələrin qarşısının alınması üçün tədbirlər görür

Baş Risk İnzibatçısı:

- İdarə Heyəti rəyini nəzərə almaqla risklərin idarəedilməsi siyasətini hazırlayır və RİK-ə təqdim edir
- risklərin idarəedilməsi üzrə İdarə Heyəti və struktur bölmələrin fəaliyyətini əlaqələndirir
- aylıq əsasda risk limitlərinin monitorinqi nəticələri, habelə bankın risk profili ilə bağlı aylıq əsasda hesabat verir. Risk iştahası göstəriciləri üzrə kənarlaşmalar baş verdikdə səbəbləri göstərilməklə bu barədə RİK-i dərhal məlumatlandırır
- bankın fəaliyyətinə aid risklərin növlərini və ölçüsünü göstərən dövri hesabatların etibarlı, şəffaf, kompleks şəkildə və vaxtında hazırlanmasını təmin edir
- risklərin idarəedilməsi sisteminin təkmilləşdirilməsi üzrə RİK-ə və Müşahidə Şurasına təkliflər verir
- bankın məruz qaldığı risklərin onun riskgötürmə qabiliyyətinə, risklərin idarəedilməsi üzrə prudensial tələblərə uyğunluğunu təmin edir
- risklərin idarəedilməsi funksiyasını həyata keçirən struktur bölmələrin əməkdaşlarının bilik və bacarıqlarının artırılması istiqamətində tədbirlər görür
- risklərin idarəedilməsi ilə əlaqədar məsələlərin müzakirə olunmasında Müşahidə Şurasının iclaslarında iştirak edir

Risklərin İdarəedilməsi Departamenti:

- risklərin idarəedilməsinin ümumi koordinasiyasını təmin edir
- bankın risklərin idarəedilməsi ilə bağlı daxili qaydalarını, habelə onlara dəyişiklikləri hazırlayır
- risklərin idarəedilməsi siyasətinə riayət edilməsinə nəzarət edir, yayınma halları barədə Risklərin İdarəedilməsi Komitəsi və İdarə Heyətinə məlumat verir
- bankın müvafiq struktur bölmələri ilə birlikdə Risklərin İdarəedilməsi Komitəsinə və İdarə Heyətinə müxtəlif fəaliyyət növləri üzrə risk limitləri barədə təkliflər verir
- risk xəritəsini hazırlayır və onun icrasına monitorinqi həyata keçirir
- risk limitlərinə riayət olunmasına daimi nəzarəti həyata keçirir və pozuntular barədə dərhal Baş Risk İnzibatçısına məlumat verir
- risklərin müəyyənləşdirilməsi və qiymətləndirilməsi üzrə metodların və modellərin seçilməsi və tətbiqi (bankın aidiyyəti struktur bölmələri ilə birgə) üzrə işləri həyata keçirir
- risklərin qiymətləndirilməsi, təhlili və nəticəsi barədə hesabatı İdarə Heyəti, RİK və Müşahidə Şurasına təqdim edir

- risklərin tanınması və idarəedilməsi baxımından bankın fəaliyyətini əhatə edən bütün proseslərə, yeni məhsul və xidmətlərə dair rəy verir
- aidiyyəti struktur bölmələrlə birgə stress-testlər keçirir və müəyyən edilən risklərin azaldılması məqsədi ilə tədbirlər planı hazırlayır
- risklərin idarəedilməsi məqsədi ilə bankın digər struktur bölmələrindən alınmış məlumatları təhlil edir
- risklərin idarəedilməsi prosesinə adekvat və səmərəli nəzarət prosedurlarının müəyyən olunması və təkmilləşdirilməsinə dair təklifləri RİK-ə təqdim edir
- bankın aidiyyəti struktur bölmələri ilə birgə fövqəladə hallar planını hazırlayır, RİK-ə və İdarə Heyətinə təqdim edir
- bankın risk iştahası bəyannaməsini hazırlayaraq Baş Risk İnzibatçısına təqdim edir
- risk iştahası bəyannaməsinin, habelə limitlər sisteminin icra olunmasına nəzarət edir, bu barədə dövrü olaraq bankın İdarə Heyətinə və RİK-ə hesabat təqdim edir
- sağlam risk mədəniyyətinin zədələnməsinə səbəb ola biləcək təhlükələri və zərərli vərdişləri qiymətləndirir və potensial risklər barədə ən azı ildə bir dəfə RİK-ə məlumat verir
- məhsul, xidmət və ya proses üzrə risklərin azaldılması tədbirlərindən sonra qalıq risklərin qiymətləndirilməsini aparır və bu barədə İdarə Heyətinə hesabat təqdim edir
- risk məlumatlarının bank sistemlərindən, müvafiq strukturlardan toplanılmasını və hesabatlığın verilməsini koordinasiya edir, habelə bu məlumatları təhlil edərək riskləri müəyyən etməklə bankın risk profilini yeniləyir
- bank üzrə baş vermiş risk hadisələrinin toplanılması, qeydiyyatının aparılmasını, onların faktiki və mümkün itkilər üzrə qiymətləndirilməsi və bu barədə müvafiq hesabatlığın hazırlanmasını təmin edir
- risklərin idarəedilməsi işində bankın aidiyyəti struktur bölmələrinə metodoloji dəstək göstərir

Bankın biznes bölmələri:

- gündəlik fəaliyyətdəki riskləri öz səlahiyyətləri daxilində idarə edir
- onlara aid olan risk limitlərinə riayət olunmasını təmin edir
- biznes bölmələrin rəhbərləri bölmələri daxilində risk barədə məlumatlılığı təşviq edir

Daxili Nəzarət və Komplayens Departamenti

- bankda komplayens riskərinin müəyyən olunması, ölculməsi və hesabatlılığından məsuldur
- bankda cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsi sahəsində olan hüquqi aktların tələblərinə riayət edilməsini kordinasiya edir
- nəzarət orqanının və maliyyə monitorinqi orqanının tələblərinə riayət edilməsini kordinasiya edir
- bankdaxili məlumatların məxfiliyinə, kənara sızması hallarının olmamasını kordinasiya edir
- requlyativ tələblərin, eyni zamanda qayda və qanunların tələblərinin yerinə yetirilməsini kordinasiya edir
- Risklərin İdarəedilməsi Departamenti ilə məlumat mübadiləsini təmin edir

Daxili Audit Departamenti:

- risklərin idarəedilməsi sisteminin adekvatlığını nəzərdən keçirir
- yoxlamaların nəticələri ilə əlaqədar Müşahidə Şurasına və Audit Komitəsinə hesabat, təklif və tövsiyələr verir
- Risklərin İdarəedilməsi Departamenti ilə məlumat mübadiləsini təmin edir

## 5. HESABATLIQ

5.1. Bankda kredit, bazar, likvidlik, əməliyyat risklərinin, habelə mövcud olan digər risklərin müəyyənləşdirilməsini, qiymətləndirilməsini, idarəedilməsini və onlara nəzarəti təmin etmək üçün risk məlumatları icmallaşdırılır və hesabatlar hazırlanır.

5.2. Risklərin İdarəedilməsi Departamenti tərəfindən ən azı aşağıdakı istiqamətləri əhatə edən analitik hesabatlar hazırlanır və RİK, İdarə Heyəti və Müşahidə Şurasına təqdim olunur:

- əsas risklər və onların strukturu
- kapitalın adekvatlığının səviyyəsi
- bankın likvidlik vəziyyəti
- risk limitlərinin istifadəsi
- stress-testlərin nəticələri

## 6. YEKUN MÜDDƏALAR

6.1. Bu siyasət Müşahidə Şurası tərəfindən təsdiq edildiyi tarixdən qüvvəyə minir. Siyasətə əlavə və ya dəyişikliklər yazılı şəkildə edilməklə Müşahidə Şurası tərəfindən təsdiq edildikdən sonra qüvvəyə minir.

6.2. Risklərin İdarəedilməsi Siyasətinə ən azı ildə bir dəfə yenidən baxılır və tələb olunduqda müvafiq dəyişikliklər edilir.